# Erkən yaş dövründə ikinci dilin öyrənilməsinin sosial-psixoloji məsələləri

**Sevinc Taryel qızı Abdullayeva**
*Bakı Dövlət Universiteti*
**E-mail:** asevinc98@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. S.Ş. Nuriyev,
psixol.ü.f.d. M.M. Mustafayev

**Açar sözlər:** xarici dil, dillərarası interferensiya, səbəblər, kritik dövr, erkən yaş dövrü, psixoloji, laterzasiya

**Ключевые слова:** иностранный язык, межъязыковое вмешательство, причины, критический период, ранний возраст, психологический, латеризация

**Key words:** foreign language, interlingual interference, causes, critical period, early age, psychological, laterzation

Dil insan üçün fəaliyyətin elə bir sahəsidir ki, onsuz insanın ictimai, sosioloji varlıq kimi mövcudluğunu təsəvvürə gətirmək belə mümkün deyildir. Dilsiz insan ictimai varlıq olmaqdan çıxıb bioloji varlığa çevrilir.

Dil iki funksiya yerinə yetirir: Birincisi, dil - insanın sosial fəaliyyətini koordinasiya edən vasitədir. İkincisi, dil - idrak proseslərindən biri olan nitqin təfəkkürlə qarşılıqlı əlaqəsində yaranmaqla düşünmənin yolu kimi çıxış edir. Çünki hər bir insan hansısa bir dildə düşünür. Təfəkkür prosesinin mərhələlərindən biri olan düşüncə işarə, simvol, obraz və kodlarla reallaşır. Düşünülənlər getdikcə mürəkkəbləşən, yeniləşən insan psixikasının və insan münasibətlərinin məzmununu ifadə edir (2).

Müasir dövrümüzün tələblərindən biri də, ana dil ilə kifayətlənməmək və hər yaşda yeni dil öyrənməyə çalışmaqdır. İkinci dil öyrənmənin sosial psixoloji aspektlərini müzakirə edən R. Gardner belə bir dili öyrənməyə təsir edən bir neçə sahənin tədqiq edilməsini təklif edir. Həmin sahələr bunlardır: sosial mühit, individual (fərdi) fərqliliklər, münasibət və motivasiyaya təsir edən amillər. Sosial mühit fərdin ikinci dil öyrənməsinə şərait yaradan sosial cəmiyyəti ehtiva edir. Məsələn, əgər cəmiyyət ikidillidirsə, o halda ikinci dili öyrənmədən kənarda qalmaq olmaz. İndividuallıqlara (1) yaş, (2) cins, (3) şəxsiyyət, (4) dilə olan maraq, (5) öyrənməyə vadar edən səbəblər kimi amillər daxildir (4).

Xarici dili öyrənməyə vadar edən bir sıra səbəblər var:

1. Daxili səbəblər: insan xarici dil öyrənməkdə maraqlıdır, ondan həzz alır və öyrəndiyi xarici dildən istifadə edir.

2. İnstrumental səbəblər: xarici dili yaxşı səviyyədə öyrənməyin maraqları və faydaları, məsələn, karyera yüksəlişi və davamlı ali təhsil.

3. İnteqrativ səbəblər: xarici dilə yiyələnərək başqa bir bölgənin və ya ölkənin mədəniyyətinə cəlb olunmağı, digər insanlarla əlaqələr qurmağı hədəfləyir (1).

XXI əsrdə 2 və daha çox dil bilmək artıq dövrün tələbinə çevrilib. Lakin yeni dil öyrənərkən müxtəlif çətinliklərlə üzləşirik. Dillərarası interferensiya hadisəsi dilin bütün aspektlərində özünü göstərir. Əvvəl yaranmış vərdişlərin yenilərinin yaranmasına mənfi təsir göstərir, onu ləngidir. Bu, interferensiya adlanır. Məsələn, yeni dil vərdişinə yiyələnmiş adam ikinci dil vərdişinə yiyələnərkən, birinci dildən ikinci dilə keçid edən zaman çətinliklə rastlaşırsa, bu

dillərarası mənfi keçirilmə və ya interfensiya hadisəsidir. Kiçik yaşlı uşaqlara dili öyrətmək asan başa gəlməsinə baxmayaraq, gənclik yaş dövründə, əsasən tələbələr ilk dəfə ingilis dili öyrənərkən bu dilin tələffüzündə çətinlik çəkirlər. Psixoloji tədqiqatlardan məlum olduğu kimi, ana dili həmişə ikinci dili mənimsəmək üçün əsas rol oynayır. Məhz bu səbəbdən, tanış olmayan səslərin öyrənilməsində çətinliklər yaranır. Lakin burada yaş amili də özünü göstərir (2).

Xarici dilin tədrisi və mənimsənilməsinə erkən yaşdan başlamaq lazımdır. Dilçilər və müəllimlər xarici dilin tədrisinin gənc yaşda uşağın idrak inkişafına kömək edəcəyini bildirirlər. Uşaqların ikinci dili böyüklərdən daha asan, tez öyrənməsi və intuitiv dil bacarığına sahib olması bir faktdır. Amerikaya başqa ölkələrdən daimi yaşamaq üçün gələn uşaqlar üzərində aparılan araşdırmaya görə, 1-6 yaş arasındakı uşaqların 68%-i bu dildə problem yaşamadan danışır. 10-13 yaş arasındakı uşaqların isə 7%-nin problemsiz danışdığı məlum olmuşdur. Bu səbəbdən xarici dil təhsili erkən yaşlarda başlamalıdır. G.T. Kumkale uşaqların xarici dili böyüklərdən daha tez öyrəndiyini, bunun elmi və praktik olaraq sübut olunduğunu söyləyir. 5 yaşına çatdıqda, uşaqlar dillərini qrammatik qaydalara uyğun istifadə etmək bacarıqlarına müvəffəqiyyətlə yiyələnirlər. Bu müddət uşaqların xarici dil öyrənməyə başlamaları üçün ən uyğun dövrdür. Başqa sözlə, uşağa şifahi xarici dil təhsili 4 yaşından verilməlidir. Çünki uşağın beyni hələ də çevikdir, yeniliyə açıqdır, fərqli dil sistemlərini öyrənmək və qəbul etmək üçün uyğundur (1).

Kraşenə görə, uşaqlarda dilin inkişafı 2 yaşından başlayır və bu inkişaf mərhələsi yeniyetmə yaşa qədər davam edir. Dil vasitəsilə yaranan qarşılıqlı əlaqə idrak inkişafının əsasını təşkil edir. Bununla birlikdə, dil öyrənmə müddətində, uşaqların bu kritik dövrlərində məktəb, ailə və ətraf mühit arasında düzgün əməkdaşlıq mövcud deyilsə, dilin tədrisində böyük problemlər yarana bilər. İxtiyari diqqətin səs üzərində cəmlənməsi, onun intensivliyinin semantikaya təsirinin idarə edilməsi də diqqətin davamlılığından asılıdır. Beləliklə, bacarıq və vərdişlərə yiyələnmə, onların avtomatlaşması da diqqətlə bağlı bir prosesdir. Diqqətin davamlılığı qavranılan materialın keyfiyyətinə müsbət təsir edərək, xarici dilin tədrisində xüsusi rol oynayır.

1960-cı illərdə irəli sürülən "kritik dövr" fərziyyəsinə görə yeniyetmə yaşa qədər olan dövr ikinci dilin öyrənilməsində kritik dövr kimi qəbul edilir. Araşdırmalara görə insan beyni inkişaf etdikcə və böyüdükcə, beynin iki yarımkürəsinin funksiyaları da ayrılır. Bu, "laterizasiya" adlanır. Sağ yarımkürə əvvəl inkişafını tamamlayır, duyğusal və sosial ehtiyacları idarə edir. Sol yarımkürə analitik və ardıcıl düşünməyi öz üzərinə götürür. Dil öyrənmə funksiyaları da beynin sol yarısı tərəfindən idarə olunur. Laterizasiyanın 2 yaşında başlandığı və ərgənlik dövründə tamamlandığı iddia edilir.

Kritik və ya həssas dövr adlanan 6-7 yaşdan əvvəl fərdlər öyrənmə deyil, əldə etmə mərhələsindədirlər. Bu əldə etmə mərhələsinin sonuna qədər, yəni beyin yetişənə və bilişsəl mexanizmlər öyrənmə mərhələsinə hazır olana qədər təmasda olduqları dilləri təbii və dolayısı ilə ana dilini əldə etmə prosesinə bənzər bir müddətdə öyrənmə qabiliyyətinə sahibdirlər. Dil qabiliyyətindən asılı olan bu vəziyyət həm ana dili, həm də xarici dillər üçün keçərlidir. Bu yaşdan sonra "öyrənmə" mərhələsi başlayır və burada tamamilə fərqli mexanizmlər işə düşür. Mexanizmlərdəki bu dəyişiklik yalnız öyrənmə prosesini fərqləndirir; buna mənfi təsir göstərmir, hətta öyrənənə başqa üstünlüklər də gətirir (3).

Anlama ilə nəticələnən xarici dil materialının informasiya dayaqları və düşünmə prosesinin psixoloji tədqiqi göstərir ki, təfəkkürü anlama vasitəsi ilə fəallaşdırmaq üçün iki şeyi (məsələn, antinomiyalar, antonimləri, paradoksları) qoşalaşdırıb fikri prosesi daxil etmək təlim

prosesində vacibdir, çünki bu prinsip həmçinin idrak prosesinin məntiqindən irəli gəlir, belə ki, əkslik təşkil edən, məlum və yeni daxil edilən bilik əksliklərin vəhdətini təşkil edərək fikri fəallığın mənbəyini təşkil etmiş olur.

Piajeyə görə, uşaqlar üçün ortalama yeddi yaş onların zehni inkişaflarında müəyyən bir dönüş nöqtəsi təşkil edir. Bu dövrdə şüur və qabiliyyət inkişaf edir. Bununla birlikdə, uşaqların bacarıq və qabiliyyətləri gündən-günə dəyişir. Məsələn, 3 və 5 yaşlı uşaqlar arasında böyük bir fərq var və təsirli tədris prosesi yalnız bu fərqlər nəzərə alındıqda mümkündür. "Uşaqlara xarici dil öyrətmək, əlbəttə ki, uşaqlar üçün möhkəm biliklərə sahib olmaqla yanaşı, dil tədris metodlarını da yaxşı bilməyi tələb edir. Uşaqlara yönəldilən diqqət müəyyən yaşdakı qabiliyyətlərinə və sosial və mədəni mühitlə münasibətlərinin xüsusiyyətlərinə uyğun olmalıdır". Uşaqların idrak, affektiv, dil, bioloji inkişaf mərhələləri bir çox tədqiqatçı tərəfindən tədqiq edilmiş və bu yaş dövründə formalaşdığını bildirmişlər.

Piaje 0-12 yaş arası uşaqlarda inkişaf müddətini dörd əsas dövrə bölür: Affektiv Motor Dövrü, Əməliyyat Öncəsi Dövrü, Beton Əməliyyatlar Dövrü, Abstrakt Əməliyyatlar Dövrü. Bu dövrlərə ümumi olaraq baxdıqda 0-2 yaşa uyğun gələn təsirli motor dövründə körpə ətraf mühiti yalnız edə biləcəyi hərəkətlər, hisslər, duyğularla qavrayır və tanıyır. Ətrafında eşitdiyi dilin səsləri ilə tanış olur, əvvəlcə onu passiv qeyd edir və tədricən dildən istifadə etməyə başlayır. 2-7 yaş arasında əməliyyat öncəsi ana dilini tamamilə mənimsəyir və simvolik düşünmə bacarığını qazanır, yəni onlar sözlərə və ya simvollara əsaslanaraq düşünə bilirlər. Əsas anlayışları başa düşür və öyrənirlər. Xəyal gücləri inkişaf edir. Bununla birlikdə, onlar yalnız konkret düşünə bilir və həqiqətlər onlar üçün yaşadıqları dərəcədə mövcuddur. Onlar eqosentrik düşüncəyə sahib olurlar. Dövrün sonlarına doğru yavaş-yavaş bu eqosentrik düşüncə tərzindən uzaqlaşır, 6-12 yaş arası, konkret əməliyyat dövründə olan uşaqlar, təcrübələr yolu ilə öz həyatı xaricindəki həqiqətlərlə maraqlanır və onları dərk edirlər.

Bu yaşda qavrama prosesi nitq fəaliyyətinin inkişafında əsas rol oynayır. Qavrayışın dəqiqliyi və detallaşması, hafizədə seçicilik, təfəkkür proseslərində məhsuldarlıq diqqətin vasitəsilə həyata keçirilir. Uzun müddət təsir edən eyni qıcıqlandırıcı oyanıqlıq yaratdıqdan sonra ləngimə baş verir, baş beyin yarımkürələrində baş vermiş mənfi induksiya qanunu diqqətin zəifləməsinə gətirib çıxarır. Diqqətin hər hansı obyekt üzərində davamlılığı olmazsa, onda bacarıq və vərdişləri formalaşdırmaq da olmaz. Əgər xarici dilin öyrənilməsinin başlanğıc mərhələsində diqqətin davamlılığına nail olmaq çətinləşirsə, yaş artdıqca bu işi nəzarət altında saxlamaq asanlaşır (5).

**Məqalənin aktuallığı.** Xarici dil öyrənilməsi dövrün tələbinə çevrilib və hər kəs uşaqların kiçik yaşlardan yeni dil öyrənməsini istəyir.

**Məqalənin elmi yeniliyi.** Məqalə uşaqların xarici dili öyrənilməsində yaranan çətinliklərin aradan qaldırılması, yeni dil öyrənərkən yaranan sosial-psixoloji problemlərin öyrənilməsində istifadə oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləni məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, praktik psixoloqlar, eləcə də valideynlər kəs istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Demet Özmat. İngilizce öğrenmeyi zorlaştıran faktörler. Hacettepe Üniversitesi Doktora Tezi, 2017.

2. Fəxrəddin Veysəlli. Dil. Bakı: Təhsil NPM, 2007.

3. Krashen Stephen. Lateralization, Language Learning and Critical Period: Some new Evidence. Language Learning, 1973.

4. Robert Gardner. Second Language Learning: A Social Psychological Perspective, 1985.

5. Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda respublika elmi konfransının tezisləri. Bakı: ADU, 2018.

**С.Т. Абдуллаева**

## Социально-психологические проблемы изучения второго языка в раннем возрасте

## Резюме

В статье объясняется ряд факторов, влияющих на изучение иностранного языка в наше время. Межъязыковое вмешательство, затрудняющее изучение нового языка, проявляется в любом возрасте. Начало изучения второго языка в раннем возрасте, помимо полноценного владения языком, положительно сказывается на развитии личности, укреплении памяти, более комфортном распределении внимания. Согласно исследованиям, те, кто изучает иностранный язык в раннем возрасте, общаются без колебаний, мышление, зрительное восприятие и другие когнитивные процессы формируются быстрее, чем у их сверстников. Одним из основных моментов, на которые следует обратить внимание в этот период, является то, что семья и социальная среда должны мотивировать изучающих новый язык, поддерживать их, когда они говорят с нарушением языковых норм, и не позволять им изолировать себя от общества.

**S.T. Abdullayeva**

## Socio-psychological issues of learning a second language at an early age

## Summary

The article explains a number of factors that affect the learning of a foreign language in modern times. Interlingual interference, which makes it difficult to learn a new language, manifests itself at any age. Starting to learn a second language at an early age, in addition to fully mastering the language, has a positive effect on the development of the individual, the strengthening of memory, more comfortable distribution of attention. According to research, those who learn a foreign language at an early age, without hesitation, are formed faster than their peers with thinking, visual perception and other cognitive processes. One of the main points to be considered during this period is that the family and social environment should motivate new language learners, support them when speaking in violation of language norms, and not allow them to isolate themselves from society.

**Redaksiyaya daxil olub:** 26.11.2020